ÖMÜR YOLU SINAQDI - DÖZÜM, DƏYANƏT GƏRƏK

HƏYATI YAŞAMAĞA HÜNƏR, MƏTANƏT GƏRƏK

...Nədənsə bəzi tənqidçilər və yazıçılar Hüseynbala Mirələmovun yaradıcılığını arxa plana çəkir, məsələyə onun özünün cəmiyyətdəki mövqeyi nöqteyi-nəzərini əsas götürməklə yanaşırlar. Amma illər keçir Hüseynbala Mirələmovun "karyerası" dəyişsə də, bədii yaradıcılıq sahəsindəki tutduğu xətt inkişaf etməkdə davam edir. Artıq de-fakto Hüseynbala Mirələmov adlı bir yazıçı Azərbaycan cəmiyyətinin gözü qarşısında böyük ədəbiyyata sədaqətini ifadə edən cəlbedici, oxunaqlı, düşündürücü əsərlər yazmaqda, pyesləri tamaşaya qoyulmaqda davam edir. həm də ən maraqlısı odur ki, janrından asılı olmayaraq Hüseynbala Mirələmovun, demək olar ki, bütün əsərlərini vahid bir üslub: bədii-publisist üslub birləşdirir. O, artıq hansı mövzuda yazırsa-yazsın, cəmiyyət miqyasında düşünən, həyat materialını cəlbedici ədəbiyyat mətninə çevirməyi bacaran, son nəticədə vətəndaş-publisist sözünü ən müxtəlif tərzdə deməyilə fərdiləşən sistemli bir yazıçıdır.

İsa **HƏBİBBƏYLİ**,
akademik